BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT 347.61/.64.086**

# UŞAQLARIN İCTİMAİ TƏRBİYƏSİNDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

**M.D.DƏMİRÇİYEVA**
***Bakı Dövlət Universiteti***
***mahabbat_d.h.t@mail.ru***

*Müasir valideynin daha bir vəzifəsi «Internetdə qoruyuçu mələk» olmaqdır.*

*İnformasiya texnologiyalarının yayılması bizim həyatımızda getdikcə vüsət almaqdadır. Kompüterdən nəinki iş şəraitində, hətta məişətdə - evdə, istirahətdə də geniş istifadə edilir. Üstəlik, evlərdə istifadə üçün iş yerlərində olduğundan daha artıq kompüter alınır. Bu, bütün dünyada olan prosesdir və Azərbaycan da istisna deyil. İnformasiya texnologiyalarının inkişafı yetişməkdə olan nəsil üçün tükənməz imkanlar yaradır: kompüter tədrisdə istifadə edilən ən vacib vasitələrdən birinə çevrilib. Nəzərə alsaq ki, İnternet istənilən informasiyanı bir anın içində əldə etməyə imkan verir, o, uşaq üçün faydalı olduğu qədər zərərli də ola bilər. Bununla bağlı yadda saxlamaq lazımdır ki, uşaqlar ümumdünya hörümçək torunda mövcud olan aqressiv xarakterli informasiyanın təhdidlərindən müdafiə olunmalıdır.*

**Açar sözlər**: uşaq, tərbiyə, informasiya, kommunikasiya

Uşaqların hüquqları dövlətlərarası xarakter daşıyan normalarla tənzim edilir. BMT-nin Baş Məclisi 20 noyabr 1959-cu ildə deklarasiya (Bəyannamə) qəbul etmiş və bütün dövlətləri oradakı normalara riayət etməyə çağırmışdır. Uşaqların tərbiyəsi problemləri bütün dünya xalqlarını narahat edir. Odur ki, uşaq hüquqları haqqında Konvensiya BMT Baş Məclisi tərəfindən 1989-cu il noyabrın 20-də qəbul edildikdən 9 ay sonra qüvvəyə minmişdir.

Beynəlxalq birlik uşaq hüquqlarına dair müqaviləyə öz münasibətini çox qısa müddətə bildirmişdir. Bu nadir, görünməmiş sənəd 1989-cu ilin noyabrında cəmi 15-20 dəqiqə ərzində səsə qoyulmadan (konsensussuz) qəbul edilmişdir. Bu həmin Konvensiyaya olan böyük hörmətin – 10 ildən də çox bir müddət ərzində həmin konvensiyanı hazırlayan insanlara və onların əməyinə olan böyük ehtiramın və hörmətin nəticəsi idi.

Sevindirici haldır ki, Azərbaycan Respublikası da YUNİSEF-in üzvü və bu konvensiyanın müdafiəçisidir.

Konvensiyanın 54 maddəsi vahid bir sənəddir. Bu maddələr istər mülki, ailə və siyasi, istərsə də sosial-iqtisadi hüquqların nadir bir təcəssümünə, ilk

dəfə olaraq, təminat verir. Həmçinin tarixi sənəd hamıya məlum olan belə bir həqiqəti təsdiq edir ki, hər hansı ölkənin gələcəyinə bəslənilən ümidlər onun vətəndaşlarının gənc nəsli ilə bağlıdır.

Azərbaycan Respublikasında bu Konvensiya əsas tutularaq 19 may 1998-ci ildə 45 maddədən ibarət «Uşaq hüquqları haqqında qanun» qəbul edildi. Artıq bizim ölkədə uşaqların şəxsiyyət kimi formalaşmasını qanun nizamlayır. Lakin bu proses çox ləng gedir. Bunun obyektiv və subyektiv səbəbləri var. Ən əsas səbəblərdən biri dünyanın hələ də qəflət yuxusundan oyanmamasıdır. Yəni Azərbaycan xalqına qarşı erməni faşistlərinin apardığı ədalətsiz müharibəyə "dur" deyilmir. Bu gün torpaqlarında ədalətsiz, qanlı müharibə gedən Azərbaycan xalqının uşaqlarının və qadınlarının düşmən tərəfindən kütləvi surətdə qətlə yetirilməsi, zorlanması, əsir alınması və onlara işgəncələr verilməsi, bir xalqın kökü, bazası, gələcəyi olan uşaqların bir şəxsiyyət kimi formalaşmasına imkan vermir.

Uşaqların tərbiyəsi barədə qayğı çəkmək, onları ictimai faydalı fəaliyyətə hazırlamaq valideynlərin nəinki əxlaqi borcu, həmçinin konstitusion borclarıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsində müəyyən edilir ki, valideynlər və onları əvəz edən şəxslər uşaqların tərbiyəsini yüksək mənəviyyat ruhunda aparmalı, onları əməyə alışdırmalı, fiziki inkişafının qayğısını çəkməli, müəyyən yaş həddinə çatdıqda onları məktəbə göndərməli, təhsilini müntəzəm davam etdirmək üçün şərait yaratmalıdır (17, 14).

Cəmiyyətin ilkin özəyi kimi ailə həmişə ictimai inkişaf qanunauyğunluqlarını öyrənən elm sahələrinin diqqət mərkəzində olmuşdur. Filosoflar ailəyə və orada müəyyən olunan münasibətlərə, insanın təbiətə, cəmiyyətə, dünyagörüşünə baxışların yaranma mənbələri kimi baxırlar (9, 14).

Siyasətçilər isə ailəni cəmiyyətdə olan ziddiyyətlərin, bərabərsizliyin və istismarın güzgüsü adlandırırlar (1, 74). Hüquqşünaslar ailəni hüququn və dövlətin yaranma mənbəyi kimi qiymətləndirirlər. Müəyyən mənada bu nöqteyi-nəzərləri doğru hesab etmək olar, belə ki, burada ailə münasibətlərinin çoxcəhətliliyi və mürəkkəbliliyi, onun cəmiyyətlə qarşılıqlı münasibəti öz əksini tapmışdır. İnsan şəxsiyyətinin mənəvi proqresi, inkişafı və formalaşması barədə cəmiyyətin əldə etdiklərinin hamısı ailədə öz əksini tapır. Cəmiyyətin ilkin, eyni zamanda, sabit həlqəsi olan ailənin rolu, əhəmiyyəti və funksiyası cəmiyyətin xarakterinin dəyişməsində özünü göstərir. Quldarlıq və feodalizm quruluşunda qapalı, natural təsərrüfatda istehsal vahidi kimi ailənin rolu mühüm idi. Ailə özünə zəruri olan hər şeyi istehsal edirdi, artıq məhsulu isə bazara çıxarırdı. Kapitalizmin meydana gəlməsi ilə maşınlı istehsal ailənin belə iqtisadi əsasını dağıtdı. Onun üzvlərini ev təsərrüfatından böyük fabrik və zavodlara çıxararaq ailəyə müasir xarakter verdi. Ailədə bütün tarixi formasiyalar boyu dəyişilməz qalan xüsusiyyət onun intim xarakterliyi, uşaqların doğulması və tərbiyəsi funksiyasıdır.

Ailədə yaranan münasibətlərin tənzim edilməsində əhəmiyyətli rol mə-

nəvi normalara aiddir. Hansı ki, mənəvi normaların əksəriyyəti ictimaiyyətdən gələn təsirdir. Lakin bununla yanaşı həmin münasibətlərin bir hissəsi hüquqi normalarla tənzim edilir.

Hüquqi kateqoriya anlayışında ailə özü-özlüyündə insanların hüquqi əlaqəsini, birliyini təşkil edir. Ailə münasibətlərinin hüquqi xarakterliyi həmin münasibətlərin hüquqi normalarla tənzimlənməsinə imkan yaradır və nəticədə ailə üzvləri arasında qarşılıqlı hüquq və vəzifələrə gətirib çıxarır. Hüquqi baxımdan ailə dedikdə, nikah və qohumluğa əsaslanan, bir-biri ilə şəxsi və əmlak hüquq və vəzifələri ilə bağlı olan insanlar birliyi başa düşülür.

Böyüməkdə olan nəslin həm ictimai, həm də ailə tərbiyəsi Ailə qanunvericiliyində bilavasitə nəzərdə tutulmuşdur. Uşaqların tərbiyəsi həmin qanuna müvafiq olaraq valideynin hüququ kimi deyil, vəzifəsi kimi nəzərdə tutulur. İctimai tərbiyə isə cəmiyyətin hüququdur. Qanunvericilik uşağın tərbiyəsinin ailədə keçirilməsinə üstünlük verir, belə ki, yalnız ailə ilkin yaşından başlayaraq uşağı tərbiyələndirmək imkanında olur. Uşağı sağlam, cəmiyyətə layiq vətəndaş kimi böyütmək çətin işdir və valideynlərdən uzun illər ərzində böyük fiziki və mənəvi qüvvə tələb edir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək ailə həyatının ayrılmaz hissəsidir. Uşaqları tərbiyə edərkən valideynlər uşaqların tərbiyəsi üzrə hüquqlarını həyata keçirirlər. Uşaqların tərbiyəsi üçün valideynlərin gördükləri hər bir iş ümumi məqsədə, ümumi mənafeyə doğru yönəldilmişdir – ailə və cəmiyyət üçün faydalı insan böyütməli, valideyn duyğularını təmin etməli. Ona görə də dövlət vətəndaşların – valideynlərin uşaqları tərbiyə etmək hüquqlarını nəzərdə tutur. Bu hüquqların xüsusiyyətləri ondan ibarətdir ki, onlar valideynin özünün şəxsiyyəti ilə sıx bağlıdır.

Son zamanlar uşağın tərbiyəsindən imtina edən valideynin əmlak məsuliyyətinə cəlb edilməsi tez-tez müzakirə olunur. Bir sıra hüquqşünaslar, o cümlədən nüfuzlu pedaqoqlar belə hesab edirlər ki, valideynlərə qarşı tətbiq edilən belə tədbir uşaqların tərbiyəsinə müsbət təsir göstərəcəkdir (10, 14).

Bizim fikrimizcə, bu məntiqi təklifdir və qanunvericilikdə ayrıca bir maddədə əmlak məsuliyyətinin tətbiq edilməsinin göstərilməsi məqsədəmüvafiq olardı.

Valideynlər tərəfindən uşaqların tərbiyəsi üzrə vəzifələr yerinə yetirilmədikdə və yaxud onların uşaqları tərəfindən hüquq pozuntuları törədildikdə həm mülki məsuliyyət, həm də inzibati tədbirlər nəzərdə tutulur. Qeyd edildiyi kimi, gələcək nəslin tərbiyəsi tək ailənin deyil, bütövlükdə cəmiyyətin işidir. Ona görə də, cəmiyyətin və ailənin bu işdə mənafelərinin uzlaşdırılması yalnız həmin məsələlərin həllinə yönəldilməlidir (11, 61). Uşaqların tərbiyəsi və saxlanılması üzrə valideyn tərəfindən hər hansı konkret bir vəzifənin ayrıca pozulması təcrübədə çox nadir halda təsadüf edilir. Bir qayda olaraq, valideynin uşağına görə vəzifəsi məcmu şəkildə pozulur: uşaqla rəhmsizcəsinə davranılır, əməyi istismar edilir, məktəbə oxumağa göndərilmir, amoral, cəmiyyətə zidd hərəkətlərlə uşağa zərərli təsir göstərilir, yəni ailə qanunvericiliyinin və əxlaq

normalarının kompleks şəkildə pozulması mövcud olur. Hüquq normalarının və əxlaq qaydalarının bu cür birləşmiş surətdə pozulması qanun və cəmiyyət tərəfindən nəzarətsiz qalmamalıdır. Belə şəraitin aşkar olunduğu ailələr dövlət və ictimai orqanların ciddi nəzarəti altına alınmalıdır.

Uşağın tərbiyəsi üçün ailə və ictimai tərbiyənin düşünülmüş, ağıllı vəhdəti aşkar edilməli, ailə tərbiyəsi prinsiplərini pozan valideynlərə təsir etmək üçün əxlaq və hüquq normalarının qarşılıqlı münasibəti müəyyən edilməlidir.

Təəssüf ki, valideynlərin müəyyən qismi uşaqların tərbiyəsi üzrə öhdələrinə düşən vəzifələri yerinə yetirmirlər, nəticədə istər uşaqlara istərsə də cəmiyyətə böyük zərər dəyir. Yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlər və digər hüquq pozuntularının mənbəyi bir qayda olaraq möhkəm və düzgün qurulmamış ailələrdən başlayır. Ona görə də, dövlət valideynlərin üzərinə uşaqlara tərbiyə vermək vəzifəsini qoyur və onların yerinə yetirilməməsi zamanı bir sıra məcburiyyət tədbirləri tətbiq edir. A.Q.Xarçevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: « öz musiqi zənginliyinə görə yaxşı olan hər hansı bir alət bütöv bir orkestri əvəz edə bilmədiyi kimi ailənin verdiyi tərbiyəni də heç bir sosial və dövlət tərbiyəsi əvəz edə bilməz» (16, 268).

Lev Tostoy «Anna Karenina» romanını bu sözlərlə başlayır: «Bütün xoşbəxt ailələr bir birinə bənzəyir, lakin hər bədbəxt ailənin özünəməxsus bədbəxtliyi var» (14, 3).

Hər bir ailənin xoşbəxtliyi onun yetirdiyi uşaqla, cəmiyyətə verdiyi övladlarının tərbiyəsi ilə ölçülür. Yaxşı övladlar tərbiyə edən ailə ən yaxşı ailədir. Ailədə böyümək, yaxşı bir ailədə tərbiyə almaq gələcəkdə yaxşı valideyn olmaq deməkdir. Buradan belə bir sual meydana çıxır – valideyn olmaq nə deməkdir? Valideyn olmaq ailə qayğısı çəkmək, yuxusuz gecələr keçirmək, övladın acı və şirin hərəkətlərinə dözmək, bu hərəkətləri düzgün yola istiqamətləndirmək, övlada nümunə olmaq, övladdan nümunəvi olmağı tələb etmək deməkdir. Bu çətin və məsul vəzifəsinin öhdəsindən gəlmək üçün biz övladlarımıza həm dost, həm valideyn, həm məsləhətçi olmalı, həyatın bir çox mürəkkəb məsələlərini onlara başa salmalı, eyni zamanda onların ürək sözlərini, arzularını, istəklərini dinləməyi də bacarmalıyıq.

Dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin təbirincə desək, «Dünyada insana nəzakətli danışıq qədər ucuz başa gəlib yüksək qiymətləndirilən heç nə yoxdur» (8, 134).

A.S.Makarenko valideynlərə müraciət edərək yazırdı: «Sizin şəxsi hərəkətləriniz ən həlledici şeydir. Fikirləşməyin ki, Siz uşağı yalnız onunla söhbət edərkən, yaxud öyrədərkən tərbiyə edirsiniz. Siz uşağı həyatınızın hər bir anında, hətta evdə olmayanda da tərbiyə edirsiniz. Sizin necə geyinməyiniz, insanlarla və insanlar haqqında necə danışmağınız, necə sevinməyiniz və kədərlənməyiniz, dostlarınıza və ya düşmənlərinizə necə müraciət etməyiniz və s. uşaqlar üçün böyük əhəmiyyət kəsb edir. Danışıq tonunuzun zərrə qədər dəyişməsini belə uşaq görür və ya hiss edir. Əgər siz kobudsunuzsa və ya tərif

sevənsinizsə, yaxud sərxoşluq edirsinizsə, siz artıq uşağı pis tərbiyə edirsiniz və ən yaxşı məsləhət və metodlar belə sizə kömək etməyəcəkdir».

Hesab edirik ki, uşaqların tərbiyəsi ilə məşğul olan müxtəlif orqanların qarşılıqlı fəaliyyəti elə təşkil edilməlidir ki, onlar bir-birini təkrar etməsinlər və birgə fəaliyyətləri nəticəsində ailə və cəmiyyət qarşısında duran böyük məqsədə nail olsunlar.

Bir sıra xüsusi hallarda (məsələn, təhsil almağa qərəzli surətdə mane olma) cinayət məsuliyyəti nəzərdə tutulmalıdır ki, bu da valideynlik hüququndan məhrumetmə ilə uzlaşmalıdır.

Ailə cəmiyyətlə sıx əlaqədə bir sıra funksiyaları da yerinə yetirir, məsələn: ailə üzvlərinin biri-birinə qarşılıqlı yardım etməsi və s.

Beləliklə, ailənin cəmiyyətdə rolu mühümdür. Ona görə də, daha mühüm ailə münasibətləri qanunvericilik yolu ilə tənzim edilir.

Ailə quran vətəndaş şəxsi arzularını cəmiyyətin qanunla ifadə olunmuş iradəsinə uyğunlaşdırmalıdır. Ailə – nikah, qohumluq münasibətləri mənəvi normaların tənzimedici təsiri altına da düşür. Çünki yoldaşlıq, dostluq kimi münasibətlər əxlaq normalarının əsas tənzimedici təsirinə məruz qalır. Bu, hüquq normalarının əhəmiyyətini heç də azaltmır, əksinə, möhkəmləndirmək, ona sosial funksiyalarını yerinə yetirmək üçün hüquqi amillərin təsirini gücləndirir.

Böyüməkdə olan nəslin tərbiyəsi, onun həyata baxışının formalaşması, təlimi, onlara müəyyən biliklərin və adətlərin aşılanması, cəmiyyətin sonrakı inkişafını müəyyən edən mühüm məsələlərdən biridir.

Şəxsiyyətin formalaşması əsasən mənəvi istiqamətdə gedir. Hüquq normalarında isə uşaqların tərbiyəsi üzrə valideynin ümumi vəzifələri nəzərdə tutulur (11, 63).

Eyni zamanda qeyd etmək istərdim ki, şəxsiyyətin formalaşmasında ailənin və ictimai tərbiyənin çox böyük əhəmiyyəti vardır. Hər bir şəxsiyyətin «mən» adlı bir qüruru olmalıdır, lakin mənin olması üçün «biz» olmalıdır. Yəni həmin «mən»in ətrafında onun şəxsiyyətini müəyyən edən bir «juri» yəni “biz”i olmalıdır. Heç kəs «bu bizi» xahiş ilə və ya başqa bir yolla ala bilməz, çünki bu «bizi» ictimai rəy təsdiq edir.

Biz uşaqları bütün təbliğat kompaniyaları və cəmiyyət tərəfindən tərbiyə edirik. Moskvada Göz xəstəxanasının baş həkimi çox hörmətli professor Fyodorov demişdir ki, «səhər işə gələndə axşam işdən gedəndə, sənədə imza atan bir adam şəxsiyyət ola bilməz». Yəni biz öz uşaqlarımıza inanmalı, onların qərarlarına hörmətlə yanaşmalıyıq. Məhz bu cür yanaşma bizim uşaqların şəxsiyyət kimi formalaşmasında çox önəmlidir.

Uşaq tərbiyəsində bir prinsipi də yadda saxlamaq lazımdır: özü döyülməyən döyməz, alçaldılmayan heç kəsi alçaltmaz, haqqı tapdanmayan haqqı tapdalanmaz.

Bu gün torpaqlarında çox ədalətsiz müharibə gedən Azərbaycan Respublikasında uşaqlarla onların düzgün gələcəyi və tərbiyəsi ilə daha effektli, hərtə-

rəfli məşğul olmaq, bir milyondan çox qaçqın-köçkünün ailə problemlərini daha ədalətli həll etmək üçün ölkədə ən əsas məsələlərdən biri də «Ailə məhkəmələri»nin yaradılmasıdır.

Dünyanın əksər ölkələrində «Ailə məhkəmələri» çoxdan fəaliyyət göstərir. Təəssüf ki, bu günə kimi Azərbaycan Respublikasında ailə məhkəmələri mövcud deyil.

Ailə məhkəmələrinin olması uşaqlarla bağlı hüquqların və vəzifələrin işləmə mexanizmində vacib amillərdən biridir.

Hər bir qanunun işləmə mexanizmi olmalıdır. «Uşaq hüquqları haqqında Qanun»un işləmə mexanizmindən biri də, təbii ki, Ailə məhkəmələrinin fəaliyyəti ilə bağlı olmalıdır.

Tərbiyə prosesində ailənin göstərdiyi təsiri heç bir digər tərbiyə vasitələri ilə əvəz etmək olmaz. Tərbiyə təbii prosesdir və demək olar ki, tənzim edilmir. O təbii surətdə, lakin ailədə və cəmiyyətdə olan ənənələr və adətlərə, qanunlara müvafiq keçirilir. Valideynin düzgün hərəkəti və uşaqla normal qarşılıqlı münasibətlərini tənzim edən heç bir hüquqi norma yoxdur.

Valideynlərin düzgün hərəkətini tənzim edən hər hansı bir hüquq normasını tərtib etmək düzgün olmazdı. Çünki valideynin hərəkətləri və qarşılıqlı münasibətləri cəmiyyətin əxlaqi və mənəvi prinsiplərinə uyğun gəlməlidir. Valideynlər öz-özlüyündə uşaqlar üçün nümunə olmalı, onlar arasında yaranan mübahisələr, konfliktlər isə uşaqlardan kənarda və onlarsız həll edilməlidir.

Ailədə hüquq və əxlaq normalarının birgə fəaliyyəti yenidən işlənilməli və cəmiyyətin bugünkü tələbləri ilə uyğunlaşdırılmalıdır. Çünki hüquq normaları ilə əxlaq normalarının birgə fəaliyyəti ailə üzvlərinin ən mühüm hüquq və vəzifələrinə təminat verir.

Qeyd edildiyi kimi, ailənin spesifikliyi onun çoxcəhətli münasibətlər məcmusundan ibarət olmasıdır. Bu münasibətlərə aşağıdakıları aid etmək olar: ər-arvad arasında, valideynlərlə uşaqlar arasında, nəsillər arasında, müxtəlif cinslər arasında olan münasibətlər. Bir tərəfdən, ailə ictimai, digər tərəfdən isə təbii qurumdur. Ona görə də ailə ikili xarakterdədir və burada təbii və sosial birliyin ziddiyyətləri və vəhdəti özünü əks etdirir (15, 25).

«Ailə həyatının ən əsas funksiya və məqsədləri uşaqları tərbiyə etməkdir». V.A.Suxomlinskinin bu fikrində böyük sosial məzmun vardır, çünki uşaqsız ailənin keçmişi olmamışdır və gələcəyi də yoxdur. Ailəyə maddi və ya mənəvi qurum kimi, təbii və sosial təşkilat kimi ayrılıqda baxıla bilməz, çünki uşaqsız ailədə uşaqların maddi, qohumluq, mənəvi həyatını əks etdirən müxtəlif ictimai münasibətlər çal-çarpaz düşür (12, 97).

Ailə təbii əsası olan maddi və ideoloji münasibətlərin vəhdəti üzərində qurulur. Əgər desək ki, «cəmiyyətin inkişafında ailənin rolu, hər şeydən əvvəl, ailənin fəaliyyəti nəticəsində nəsillərin bioloji, sosial və mənəvi cəhətdən təzələnməsi yolu ilə ictimai proqresdən ibarətdir”, mübaliğə etməmiş olarıq.

Baxmayaraq ki, uşaqların tərbiyəsi məsələsi günün ən aktual məsələlə-

rindən biridir, hüquq ədəbiyyatında həmin məsələnin həllinə dair monoqrafik tədqiqatlar kifayət qədər deyildir.

Dövlət ailə tərbiyəsini ictimai tərbiyə ilə heç zaman əvəz etməyə çalışmamışdır. İctimai tərbiyə uşaqlara kollektivizm ruhu aşılayır. Onda xarakterin ən yaxşı xüsusiyyətlərinin inkişafına kömək edir. Dövlət nəinki içtimai tərbiyəni həyata keçirir, həmçinin uşaqların saxlanılmasında və tərbiyəsində valideynlərə yaxından kömək edir (9, 71).

İctimai həyatın ən adi və mürəkkəb problemləri, nailiyyət və çətinlikləri, anlaşma və ziddiyyətləri öz əksini birinci növbədə ailədə tapır. Lakin ailə münasibətlərinin özünü ictimai münasibətlər təşkil edir. Ailə ictimai hadisə olmaqla həm də təbii əsasa, bioloji başlanğıca malikdir. Ailənin təbii əsasını insanın təbiətdə başqa cinsdən olan insana meyli, övlada malik olma hissi təşkil edir. F.Köçərlinin fikrincə, ailəni səciyyələndirən cəhətləri ümumiləşdirərək ailəyə aşağıdakı tərifi vermək olar: ailə insanların (ərin, arvadın və uşaqların) tarixən dəyişən, istehsal münasibətlərinin tipi ilə müəyyən edilən və nəsli davam etdirmək, uşaqları tərbiyə etmək, təsərrüfat fəaliyyəti göstərmək kimi vəzifələri həyata keçirən birgə yaşayışlarının formasıdır (7, 29).

Hər bir uşağın tərbiyəsində onun sağlamlığı da əsas rol oynayır. Sağlam mühit və fiziki sağlamlıq qarşılıqlı surətdə tərbiyədə önəmlidir. Təsadüfi deyil ki, deyirlər, sağlam bədəndə sağlam ruh olur.

Lakin informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı nəinki uşaqların sağlamlığına, hətta ictimai tərbiyə kimi uşaqların tərbiyəsinə də pis təsir edir. Təhsil Nazirliyi, Azərbaycan İnternet Forumu və Microsoft-Azərbaycan təşkilatlarının birgə dəstəyi ilə həyata keçirilən «Uşaqların İnternetdə təhlükəsizliyi» layihəsindən başqa informasiya və kommunikasiya texnologiyalarına nəzarət ilə bağlı dövlət tərəfindən heç bir rəsmi sənəd yoxdur.

İnternet yavaş-yavaş hər bir qurumun, ictimai birliyin, tədris müəssisəsinin həyatına və evimizə daxil olur. Azərbaycanda İnternet istifadəçilərinin sayı sürətlə artır, üstəlik də ümumdünya hörümçək torundan istifadə edən gənclərin və yeniyetmələrin sayı olduqca çoxdur. Bir çoxları, xüsusən də gənclər üçün İnternet elə bir informasiya vasitəsinə çevrilir ki, onlar şəbəkəsiz həyat təsəvvür edə bilmirlər. Bu da təəccüblü deyil: axı, İnternetdə referat və kurs işi üçün informasiya tapmaq, sevimli musiqini dinləmək, istənilən kitabı almaq və ya çoxsaylı forumlarda istənilən məsələləri müzakirə etmək olar.

İnternet tədris, istirahət və ya dostlarla ünsiyyət üçün əla və faydalı bir vasitə ola bilər. Ancaq gerçək aləm kimi, şəbəkə də təhlükəli ola bilər: burada da özünün cinayətkarları, dələduzları, bədniyyətliləri və sair zərərvericiləri peyda olub. Ünsiyyətin virtual olması bədniyyətli adamlara uşaqlara zərər vurmaq üçün əlavə imkanlar yaradır. Son zamanlar İnternetdə çox sayda aqressiv və ictimai-təhlükəli tərkibli materiallar ortaya çıxır. Böyüklər belə təhlükələrin mövcudluğunu unutmamalı və uşaqların İnternetdə təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirməlidirlər.

Müasir valideynin daha bir vəzifəsi «İnternetdə qoruyucu mələk» olmaqdır. İnformasiya texnologiyalarının yayılması bizim həyatımızda getdikcə vüsət almaqdadır. Kompüterdən nəinki iş şəraitində, hətta məişətdə-evdə, istirahətdə də geniş istifadə edilir. Üstəlik, evlərdə istifadə üçün iş yerlərində olduğundan daha artıq kompüter alınır. Bu, bütün dünyada olan prosesdir və Azərbaycan da istisna deyil. İnformasiya texnologiyalarının inkişafı yetişməkdə olan nəsil üçün tükənməz imkanlar yaradır: kompüter tədrisdə istifadə edilən ən vacib vasitələrdən birinə çevrilib. Nəzərə alsaq ki, İnternet istənilən informasiyanı bir anın içində əldə etməyə imkan verir, o, uşaq üçün faydalı olduğu qədər zərərli də ola bilər. Bununla bağlı yadda saxlamaq lazımdır ki, uşaqlar ümumdünya hörümçək torunda mövcud olan aqressiv xarakterli informasiyanın təhdidlərindən müdafiə olunmalıdır.

İnformasiya təhlükəsiziiyi və bu sahədə texnoloji həllərin təkmilləşdirilməsi məsələləri daim Microsoft şirkətinin xüsusi diqqət mərkəzindədir. Heç də az əhəmiyyət daşımayan vəzifə isə insanları özlərini və ailələrini müdafiə edəcək səviyyədə texnologiyalardan istifadəyə öyrətməkdir. Çox zaman uşaqlar informasiya texnologiyalarından istifadədə böyüklərdən daha irəli gedirlər. Birdə ki, böyüklər heç də hər zaman dərk edə bilmirlər ki, uşaqlar İnternetdən istifadə edərkən hansı risklərlə qarşılaşa bilərlər. Yaxud da texnologiyalardan istifadədə kiçiklərə yardım edə bilmirlər. Üstəlik, uşaqların təhlükəsizliyini təmin etməyi bacarmırlar. Valideynlər yaddan çıxarmamalıdırlar ki, uşağa inkişaf üçün hansı informasiya lazımdır. Yaxşı bir kitab tapıb onu uşağa vermək mümkündür, bəs axtarılan informasiya İnternetdədirsə, nə etməli? Belə olan halda uşaqla birlikdə kompüter arxasında oturub birgə axtarış aparmağa çalışmaq lazımdır. Bu isə uşağın informasiya resurslarını və texnologiyalarını daha yaxşı axtarıb tapmasına və istifadəsinə gətirib çıxaracaq. Uşağa izah etmək lazımdır ki, açıq informasiya mühitindəki məlumatlara fərqli yanaşmaq lazımdır. Vacibdir ki, həm valideynlər, həm də uşaqların özü informasiya mühitinin mənfi və müsbət yönlərinin olmasını yaddan çıxarmasınlar.

Lakin buna həmişə nail olmaq olmur. Çünki iqtisadi böhranın təşəkkül tapdığı bir zamanda ailənin dolanması üçün valideynlərin hər ikisi işləyir. Valideynin hamısının uşaqla İnternetdə vaxt keçirməyə imkanı olmur.

Uşaqların İnternetə girişini necə tənzimləməli və onların şəbəkədə səyahətlərinə necə nəzarət etməli? Bunun konkret bir cihazı yoxdur. İnternetdən özlərinin qanunsuz və mənəviyyatdan uzaq bəd əməlləri üçün istifadə edən ünsürlərin cinayət əməllərindən uşaqları necə müdafiə etməli?

Lakin hələlik ailə və ictimai nəzarət, tərbiyə bu problemin həllində yeganə vasitə ola bilər.

Uşaqların çoxu İnternetdə əyləncə (məsələn, oyunlar) axtarmaqdan zövq alır. Bəzən yeni bir oyun saytı axtararkən onlar qumar saytına tuş gələ bilərlər. Oyunların çoxu yeniyetmələr üçün qanunidir, ancaq onların qumar oynaması qanunla yasaqdır.

Oyun saytları ilə qumar saytları arasında fərq ondan ibarətdir ki, birincilərdə, bir qayda olaraq, masaüstü və sözlü oyunlar, başsındırmalar və tapmacalar olur. Burada pul xərcləməyə ehtiyac olmur. Nə gerçək, nə də virtual pul. Qumar saytlarında isə adamlar pul udub-uduza bilərlər. Bir qayda olaraq, bu cür saytlar gerçək pulların iştirakı ilə olan oyunlardan ibarətdir.

Valideynlər uşaqlarının hansı oyunları oynaya biləcəyinə qərar verməlidir. Oyunların janrını (deyək ki, yalnız bilyard, şahmat və s.) və oyunçuların sayını (tək də oynamaq mümkündür axı) müzakirə edin.

Uşaqlara xatırladın ki, onlara pulla oynamaq olmaz. Onlara nağd və ya nisyə pul ödənişi tələb edilməyən və heç də az cəlbedici olmayan oyunlara qatılmağı təklif edin.

Uşaqlara belə oyunların mexanizmini anlamaqda yardımçı olun. Axı əsasən bu cür oyunların yaradıcıları da onları gəlir məqsədilə icad edir. Oyunçular udduqlarından daha artıq uduzurlar.

Uşaqların İnternetdə kredit kartlarınızın nömrəsindən istifadə etməsinə izin verməyin. Onları uşaqların əli çatmayacaq yerlərdə saxlayın. Pula şəbəkə oyunlarında adətən ehtiyac olur. Uşaqlar özlərindən xəbərsiz borca düşə bilərlər.

İzah edin ki, pullu oyunlar yoluxdurucu olur. Hər zaman asılılıq yarana bilər. Bu, bir xəstəlik kimidir, xüsusən də kredit kartı və onun içində müsbət balans varsa. İnsan bütün pulların axırına çıxana qədər oynaya bilər.

Uşaqlarınızın İnternetdəki davranışına nəzarət edin. Diqqət edin ki, onlar hansı saytları ziyarət edir və İnternetdə nə ilə məşğul olurlar. Sual oluna bilər ki, bu belə asan işdir. Təbii ki, yox, lakin söz uşaqdan gedir. Həm də dövlət bu prosesə nəzarət etmir. Demək, hələlik bütün yük valideynin üzərinə düşür.

Bütün bu xəstəliyi tamamilə müalicə etmək olmur. Yenə də ictimai təbliğat və tərbiyə çox önəmlidir.

Bir qayda olaraq valideynlərin çoxu uşaqlarının pornoqrafik, nifrətdoğurucu, intihar tərkibli, təriqətçi və ədəbsiz sözlərlə zəngin materiallarla tanış olmasını arzu etmirlər. Bu cür materialları arzuolunmaz materiallar hesab edirlər.

Əgər pornoqrafik və ədəbsiz sözlərdən ibarət materialları süzgəc vasitəsilə müəyyən etmək mümkündürsə, başqa arzu olunmaz materiallardan yaxa qurtarmaq elə də asan deyil.

Misal üçün, uşaq saytlarında nifrətin müxtəlif təzahür formalarına rast gəlmək olar: kəskin təhqirdən tutmuş kobud lağaqoymaya qədər. Belə saytlar ilk baxışdan zərərsiz kimi görünə bilər. Ancaq onlar uşaqların mədəniyyətinin formalaşmasına öz damğasını vurur. Yəni başqalarına qarşı kobudluq uşaq üçün yolverilən sayılır.

Rasistlər və nifrət qrupları gəncləri öz sıralarına cəlb etmək üçün İnternetdən istifadə edirlər. Bu qruplar əvvəlcə sadəlövh gəncləri axtarır, sonra da onları öz sıralarına cəlb edirlər. Bunun üçün isə çat və email-poçtdan istifadə edirlər.

Bir sıra nifrət saytları uşaqlar üçün xüsusi bölmələr də ayırır. Saytin bu

hissəsi xüsusi olaraq diqqətçəkən olur və sadə oyunlar təklif etməklə ciddi saytlara keçidlər verir.

Texnologiyanın müsbət cəhətləri ilə yanaşı uşaq sağlamlığına zərər verən nə qədər mənfi cəhətləri də var! Bu qədər güclü enerji ilə işləyən telefonlar və kompüterlər gənclərin sağlamlığına mənfi təsir edir. Heç bir məktəb, iş və təhsil müəssisəsi bunlardan istifadəyə qadağa qoya bilmir. İnformasiya və kommunikasiyanın insanların yaşam tərzini asanlaşdırmasını dəyərləndiririk. Lakin bunu elə etmək lazımdır ki, bizə daha dəyərli olanları itirməyək. Göz qəlbin aynasıdır. Heç bir sözlə ifadə edilməyən «susaraq» danışmaq mədəniyyəti, göz-gözə baxaraq, pıçıltı ilə deyilən bircə kəlmənin gücünü saatlarla olan telefon və kompüter yazışmaları əvəz edə bilməz. İnsanın insani hisslərini oyadan, qəlbini döyündürən nəfəsinin istiliyini, səmimiyyətini hiss etdirən qarşılıqlı danışıqların tərbiyəsini, problemin həllini, heç bir cansız aparatla əvəz edə bilmərik.

Elə məsələlər var ki, onu nə kompüterlə, nə telefonla şərh etmək olmur. Zaman keçdikcə çox qiymətli uşaq tərbiyəsini itiririk. Böyük şəhərlərdə bunu artıq itirmişik. Bir az da texnologiya inkişaf etdikcə kiçik şəhərlərdə də bunu itirə bilərik. Tərbiyə çox vaxt sənin ətrafındakı mühitdən də asılı olur.

İctimai tərbiyənin nüfuzu çox azalmışdır. Məni narahat edən böyük bir xalqın çox dəyərli tarixi şəxsiyyətlərinin bir-birinə miras olaraq verdikləri tərbiyə texnologiyanın inkişafı ilə yox olmaq üzrədir. Bunu xilas etmək ictimai tərbiyənin üzərinə düşür ki, bunun da məsuliyyətini bütöv bir xalq daşıyır. Kompüterdən istifadə ilə bağlı proqramlar hazırlanmalıdır ki, uşaqlar bütün saytlara daxil ola bilməsin.

Bu gün tək Azərbaycanda deyil dünyada ən ağır, qarşını almaq çox böyük çətinliklər törədən informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətdə, ən əsas isə uşaqlar arasında düzgün istifadəsinə dövlət nəzarətinin çox zəif olmasıdır. On ildən artıqdır ki, Azərbaycanda kompüterdən istifadə çox geniş vüsət almışdır. Lakin kompüterdən istifadəyə dövlət nəzarəti demək olar ki yoxdur. İnternet bir xəstəlikdir. Bu xəstəlik vaxtında müalicə olmasa, çox böyük fəsadlar törədər. İnternet xəstəliyi uşaq tərbiyəsinə çox böyük zərbə vurur. Uşaqlar arasında özünü öldürmə, psixi pozğunluq, təhsildən yayınma kimi hallar uşaqların İnternetdən istifadəsinə nəzarətin olmamasından törəyir. İngilislərin bir deyimi var, uşaqların tərbiyəsi gərək bələkdən başlaya.

İnternet uşaqlara oyunlara və filmlərə giriş imkanı verir, həm də onların sonsuz bilgilər əldə edib tədqiqat vərdişlərini artırır. Ancaq bu üstünlüklər bir sıra çətinliklərlə də müşayiət olunur. Bununla belə, uşaqları İnternetdəki təhlükələrdən qorumaq üçün bəzi addımlar atmaq olar. Onu da unutmaq olmaz ki, istənilən texniki biclik valideyn nəzarətindən ictimai nəzarətdən uzaq olmasın.

Biz, bir mütəxəssis kimi, texnologiyanın inkişafını, dünyaya inteqrasiyanı çox alqışlayırıq. Lakin bizim gələcəyimiz olan uşaqlarımızın tərbiyəsində ictimai tərbiyə formalarından biri olan informasiya və kommunikasiya texno-

logiyalarının inkişafına nəzarətin olmaması təhlükəsindən narahat olduğumuzu bildiririk.

Heç bir iqtisadi, siyasi tətil tərbiyəsi itirdiyiniz uşaqların «tətilindən» qorxulu ola bilməz.


**Qanunvericilik materialları və sair normativ aktlar**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2011.
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2000.
3. Azərbaycan Respublikasının Mülkü Prosessual Məcəlləsi. Bakı, 2010.
4. «Uşaq hüquqları haqqında konvensiya». 1990-cı il 2 sentyabr.
5. «Uşaq hüquqarı haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998.
6. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları Məcmuəsi (1961-1997). Bakı, 1998.

**ƏDƏBİYYAT**

7. Köçərli F. Sosializm cəmiyyətində ailə. Bakı: Azərnəşr, 1959, s.157.
8. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Azərnəşr, 1953, s. 165.
9. Белякова А.М., Д.Карев, В.С.Орлов. Правовая охрана детства. М.: Юрид. лит-ра, 1968, с. 156.
10. Дамирчиева М.Д. Брачный договор. Баку: Ганун, 2003, с. 135.
11. Королев Ю.А. Семья, государство, общество. М.: Юрид. лит-ра, 1971, с. 192.
12. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975, s. 263.
13. Смулевич В.Н. Народное здравие и социология. М.: 1976, с. 239.
14. Толстой Л.Н. Анна Каренина. Баку: Азернешр, 1974, с. 766.
15. Шимин Н.Д. Семья как общественное явление. Б.: Воронежский Университет, 1989, с. 188.
16. Харчев А.Г. Брак и семья в СССР. М: 1964, с. 170.
17. Яцкевич Я.И. Закон и родители. Минск: Юрид.лит-ра, 1989, с. 142.


## РОЛЬ ИНФОРМАЦИОННЫХ И КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБЩЕСТВЕННОМ ВОСПИТАНИИ ДЕТЕЙ


**М.Д.ДАМИРЧИЕВА**


**РЕЗЮМЕ**


Одна из обязанностей современных родителей - “ангел хранитель” в интернете. В сфере нашей жизни все больше определяется место распространениям информационных технологий. Мы используем компьютер не только в условиях работы, но также и в повседневной жизни в доме, во время отдыха. Кроме того покупка компьютеров осуществляется больше для дома, чем для рабочих мест. Это – существующий процесс во всем мире, и Азербайджан не исключение. Развитие информационных технологий создает неистощимые возможности для следующего поколения: использование компьютеров в образовании стало одним из самых важных средств. Рассматривая тот факт, что Интернет позволяет нам получать желаемую информацию мгновенно, это может также быть как вредно так же выгодно для ребенка. Необходимо помнить, что дети должны быть защищены от угроз существующей информации агрессивного характера в международной сетевой паутине.



**Ключевые слова**: дети, воспитание, информация, коммуникация

# THE ROLE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE PUBLIC EDUCATION OF CHILDREN

**M.D.DAMIRCHIYEVA**

**SUMMARY**

One of the duties of modern parents is “safety angel” on the Internet. Widespread information technologies are receiving more and more dissemination in our lives. We are widely using computer not only in job conditions, but also in daily life - at home, at leisure. Moreover, purchase of computers for houses exceeds that for workplaces. This is a worldwide process and Azerbaijan is not an exception. Development of the information technologies creates inexhaustible opportunities for the future generations: use of computers in education has become one of the most important means. Considering the fact that the Internet allows obtaining the desired information in a moment, it can be both, harmful and beneficial for children. It is necessary to remember that children must be protected from threats of availability of information of aggressive character on the international network web.

**Key words**: children, bringing up, information, communication